## Sən də Sus (Deyişme)

**Hüseyn Arif**

Asta tərpət ayağını, əlini,
Yaxşı susur, yaman susur, sən də sus!
Vaxt-vədəsiz işə salma dilini,
Qanmaz susur, qanan susur sən də sus!

**Cəmil Əkbər**

Sinəsini çox döyənlər getdilər,
Öz-özünü çox öyənlər getdilər,
Harın-harın çox yeyənlər getdilər,
Çərxi-fələk bir an sussa sən də sus.

**Cəmil Əkbər**

Hüseyn Arif gəl başər sus demə,
Arzu, istək,dilək sussa sən də sus!
Hər yetənə yerli-yersiz kəs demə,
Vicdan sussa, məslək sussa sən də sus!

**Hüseyn Arif**

Dar macalda nə ordular basılıb,
Qancırğadan neçə başlar asılıb,
O yerdə ki birbirinə qısılıb,
Qartal susur, tərlan susur, sən də sus!

**Hüseyn Arif**

Palıd qopur bircə anın içində,
Gözdən itir dağ-dumann içində,
Yar-yoldaşın, el-obanın içində,
Enən susur, qalxan susur, sən də sus!

**Cəmil Əkbər**

Yaxşı-yaman birbirindən seçilir,
Boya görə öz xələti biçilir,
Çox "nəhənglər" məqam gəlir kiçilir,
Xəlbir sussa, ələk sussa sən də sus!

**Cəmil Əkbər**

İnsanoğlu bir-birini bezdirir,
Hər əzaba, əziyyətə dözdürür,
Cəhənnəmi diri-diri gəzdirir,
Hiylə sussa, kələk sussa sən də sus!

**Hüseyn Arif**

Nə kamala, nə vicdana güvənmə,
Saf ürəyə, sağlam cana güvənmə,
Bu dəvaya, bu dərmana güvənmə,
Görmürsənmi Loğman susur sən də sus!

**Hüseyn Arif**

Bilirsənmi kim izləyir, kim güdür?
Kor yapalaq qızıl quşu ülküdür,
Güman etmə tülkü, bu o tülküdür,
Pələng susur, aslan susur, sən də sus!

**Cəmil Əkbər**

Təbiətin fitrəti var a şair,
Mərd igidin qüdrəti var a şair,
Qəzəbi var, hiddəti var a şair,
Tufan sussa, külək sussa sən də sus.

**Cəmil Əkbər**

Meydan açıb gör nə deyir ağalar,
Böyük-kiçik pəsinməyir "qağalar",
Səs-küy salır, qığıldayır çağalar,
Nənni sussa, bələk sussa sən də sus!

**Hüseyn Arif**

Adam demə, hər adama həyatda,
Qafil olub çəkmə xana həyatda,
*Hüseyn Arif* baş aparma həyatda,
Zaman susur, dövran susur, sən də sus!

**Hüseyn Arif**

Xeyri nədir yeri-göyü soraqla,
O kitabı, bu kitabı varaqla,
Öz-özünə ha gurulda, ha çağla,
Dərya susur, ümman susur, sən də sus!

**Cəmil Əkbər**

*Cəmil Əkbər* yaratmağa çalışır,
Ömürləri uzatmağa çalışır,
İnsanlığı yaşatmağa çalışır,
Fikir sussa, dilək sussa sən də sus!